*Almaz Ahmetbekuli*

# Göy bayrağın dalğalanması

Göy bayrağımın dalğalanması,
Qazaxın özgürlük zəmanətidir.
Sevdası, qüvvəti – ikisi birgə,
Ruhumun vücuda əmanətidir...

Göy bayrağımın dalğalanması,
Canıma yaşamaq qüvvəti verir!
Əgər seçim olsa: can və ya bayraq,
Canımdan da artıq gərəkdi, ellər,
Göy bayrağımın dalğalanması!

Göy bayrağımın dalğalanması,
Azadlıq eşqinə oxunan nəğmə!
Səsimə səs verin! – deyərək bizə,
Qazax ellərində toxunan nəğmə!

Göy bayrağımın dalğalanması,
Əldə xoşbəxtliyin yellənməsidir.
Vətən həsrətini çəkən qazaxın
Müstəqil yurduna qovuşmağıyçün
Gözündə sevincin sellənməsidir...

Türküstan.- 2020.- 9-22 iyun. S. 21.